

# Ankarada Naxçıvan Sazişinin 15 illiyi münasibətilə təntənəli tədbir keçirilib

**Ankarada "Türk Dövlətləri Təşkilatının yaradılması haqqında Naxçıvan Sazişinin 15 illiyi" və "3 Oktyabr Türk Dövlətləri Əməkdaşlıq Günü" ilə bağlı təntənəli tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyənin daxili işlər naziri Ali Yerlikaya və digərləri Naxçıvan Sazişinin imzalanmasında ötən 15 il ərzində formalaşan əməkdaşlıq sahələri, ortaq dəyərlərimizin birgə layihələrlə dünyada tanıdılması və əlaqələrin hər il daha da inkişaf etdirilməsi istiqamətində atılan addımlar barədə danışıblar.

Tədbir əsnasında Türk Dövlətləri Təşkilatının formalaşması istiqamətində görülən işlər, keçirilən tədbirlər və ortaq mədəni irsimizi özündə əks etdirən fotoşəkillərdən ibarət sərgi açılıb. Tədbirdə Türkiyənin, eləcə də qardaş ölkədəki türkdilli dövlətlərin rəsmi qurumları və diplomatik korpusun nümayəndələri, müxtəlif türkdilli təşkilatlar, o cümlədən Türk Dövlətləri Təşkilatı və TÜRKSOY-un əməkdaşları və digərləri iştirak ediblər.

Azərbaycan.- 2024.-5 oktyabr (№ 218).- S.9.